# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 189** **Bakı şəhəri, 30 iyun 2021-ci il**

***Mingəçevir Turizm Kollecinin yenidən təşkili haqqında***

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respubli-kasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 2.5.2-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Mingəçevir Turizm Kolleci publik hüquqi şəxs statusuna malik olan Mingəçevir Turizm Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** Bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

2.1.1. publik hüquqi şəxsin yenidən təşkili və ləğv edilməsi;

2.2. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə:

2.2.1. bu Qərarın 2.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsi ilə publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**3.** Bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxs "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək, Mingəçevir Turizm Kolleci öz fəaliyyətini davam etdirsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq q zeti.- 2021.- 1 iyul.- S.6.